# SAHİBKARLIQ VƏ YENİLİKLƏR ARTIMIN MÜHƏRRİKİDİR

**Ruslan Stefanov**
**Coordinator of the Economic Program**
**Center for the Study of Democracy, Sofia, Bulgaria**

# TƏQDİMATIN PLANI

- Müasir bazar iqtisadiyyatlarında sahibkarlıq və yeniliklər artımın mühərrikidir;
- Sahibkarlığın xarakteri:
  - Necə Sahibkar olurlar;
  - Sahibkar yetişdirmək mümkündürmü?
  - Sahibkarlığın çiçəklənməsi üçün mühit necə olmalıdır?
  - Sahibkarların dünyaya gəlməsi və inkişafı üçün önşərtlər hansılardır?
- Sahibkarlığa maneələr;
- Yenilik nə deməkdir və onun sahibkarlıqla əlaqəsi nədədir?
- Şərqi Avropada sahibkarlıq və yeniliklərin müzakirəsi

# SAHİBKARLIQ NƏ DEMƏKDİR?

**Sahibkarlıq fərdlərin və şirkətlərin riskin altına girmək bacarığıdır**

- Sahibkarların özəl səyləri müasir bazar iqtisadiyyatın inkişafında aparıcı qüvvədir;
- Şərqi Avropa və digər ölkələrdə sahibkarlıq demokratik və bazar-istiqamətlı islahatların təməlində olub;
- Müasir cəmiyyətlər üçün sahibkarlıq mədəniyyatı kritik rol oynayır

# SAHİBKARLIQ MƏDƏNİYYATI

- Sahibkarlığın müxtəlif növləri var;
- LAKİN sahibkarlıq mədəniyyatı müəyyən institutlara əsaslanır:
  - Seçim azadlığı;
  - Biznesin başlanması və yürüdülməsi azadlığı;
  - İşəgötürmə azadlığı;
  - İnformasiya azadlığı;
  - Bu institutlar sahibkarlıq üçün lazımi mühiti təmin edirlər və eyni zamanda sahibkarlıq fəaliyyəti nəticəsində əldə olunan gəliri mühafizə edirlər

**Sahibkarlığı qidalandıran azad bazardır**

# ÖLKƏNİN YARADICI QÜVVƏSİNDƏN İSTİFADƏ

- Sahibkarlıq və özəl sector azad bazarda mərkəzi rola malikdirlər, çünki onlar:
  - Yeni ideyalar gətirir;
  - Yeni mallar istehsal edir və iş yerləri açır;
  - İnkişaf üçün yeni yollar kəşf edir;
  - Yeni varidat yaradır;
  - Istehlakçıların tələbatını ödəyir
- Azad bazar o deməkdir ki, mövcud qanunvericiliyə əsaslanaraq insanlar azad mal mübadiləsi apara bilər və aralarında müqavilə imzalaya bilər

# ÖLKƏNİN YARADICI QÜVVƏSİNDƏN İSTİFADƏ

- Mülkiyyət hüquqlarının təmin edilməsi dövlətin əsas rollarından biridir:
  - Iki tərəf arasında faydalı mübadilə imkanları olduqda onlar hər dəfə belə mübadilənin təhlükəsizliyi məqsədi ilə onu müvafiq müqavilə əsasında etməlidirlər;
  - Dövlət mülkiyyət hüquqlarını  müdafiə etməli və müqavilələrin yerinə yetirilməsini təmin etməlidir

- Mülkiyyət hüquqları pozulduqda insanlar sahibkarlıqla məşğul olmağa maraqlı olmurlar
  – məsələn, bir çox Afrika ölkələrində sahibkarlıqla məşğul olmaq çox çətindir, səbəbi isə mülkiyyət hüquqlarının zəif qorunması və qanunların aliliyinin təmin edilməməsi.

# ÖLKƏNİN YARADICI QÜVVƏSİNDƏN İSTİFADƏ

- Bazarların və sahibkarlığın fəaliyyəti üçün  qanunvericilik dəqiq və hər kəsə tətbiq edilməlidir:
- Qanun aliliyi o deməkdir ki, qaydalar  cəmiyyətin hər bir üzvünə aiddir;
- Qanun və qaydalar insanlar üçün mütləqi olmalıdır;
  - Əgər kimsə  qanunların icrasından azad olursa bu qeyri ədalətli üstünlüklər yaradır

**Qanunun aliliyi yalnız cinayətkarları dama basmaqdan ibarət deyil**

# DEMOKRATİYA VƏ SAHİBKARLIQ

- Demokratiya və sahibkarlıq bir birinə bağlıdırlar;
  - Onlar ikisi də siyasi və iqtisadi azadlığa, mülkiyyət hüququna, qanunun aliliyi prinsipinə əsaslanırlar
- Dövlətin sahibkarlığa münasibəti həmin ölkədə demokratiyanın nə vəziyyətdə olduğundan bəhs edir
  - Şərqi Avropa və keçmiş Sovet məkanı ölkələrinin çoxunda sahibkarlar qanunları pozmaqla varlanmış oliqarx və digər insanlarla əlaqəlidir
  - O ölkədə ki, sahibkarlar və ya şirkətlər qeyri-qanuni qazancla əlaqəli kimi anlaşılırlarsa, həmin ölkədə demokratiya və bazar iqtisadiyyatı çiçəklənə bilməz

# SAHİBKARLIĞIN YETİŞDİRİLMƏSİ

**Sahibkarlıq çox incə bir şeydir. Baxmayaraq ki, uzunmüddətli inkişafı üçün əlverişli biznes-mühit tələb edir, çox asan məhv ola bilər.**

- Bu gün sahibkarlar həm fiziki həm də virtual (internet) yolu ilə öz fəaliyyətlərini qura bilərlər
  - Bu və ya digər ölkə biznes üçün əlverişli deyilsə, sahibkarlar ya digər ölkələrə getmək və ya qeyri-rəsmi fəaliyyət göstərmək yolunu seçə bilərlər;
- Azad bazara giriş imkanı sahibkarların iqtisadiyyatın rəsmi sektorunda fəaliyyəti üçün çox vacib şərtdir
  - Bu şərt qanunun aliliyi və mülkiyyət hüquqlarına hörmətlə yanaşmanı tələb edir;
  - Tələb olunan qaydalar biznesin başlanması və böyüməsini asan edir

# VERGİ VƏ İNZİBATİ MANEƏLƏR

- Vergi yükü tarazlaşdırılmış olmalıdır
  - Digər şərtlərin eyni qalması şəraitində, dövlət vergilərinin böyük olması sahibkarı biznesə başlamaq həvəsindən çəkindirə bilər
  - LAKİN bu yalnız doğrudan da böyük vergilər üçün (dövlət xidmətlərinə uyğun olmayan) həqiqətdir
- Vergi yükü daha geniş başa düşülməli, o yalnız vergi dərəcələri deyil, inzibati maneələri də əhatə edir;
  - Vergilərin toplanması yolu, yoxlamalar və s.

**Kölgə iqtisadiyyatının miqyası rəsmi institutların necə işləməsindən xəbər verir**

# YARADICI SAHİBKARLIQ

- Canlı və yaxşı işləyən bazar iqtisaiyyatı üçün sahibkarlıq əsas şərtdir
- LAKİN biznesi yaratmaqla iş bitmir – o yaradıcı və məhsuldar olmalıdır
  - Müvafiq təşviqedici mexanizmlər mövcud olmadıqda, bizneslər müvafiq dəyəri (keyfiyyəti) təmin etmədən və ya qanunsuz gəlir əldə etmək yollarını axtara bilər
  - Sahibkarlıq və yenilikçilik (innovation) müasir iqtisadiyyatlarda iqtisadi artımın iki mühərrikidir
  - Texnoloji yenilikçilik
  - Bazar və təşkilati yenilikçilik

**Yenilikçilik yeni və daha yüksək dəyər təqdim edir həm istehlakçılara həm də bazarlara. Bu isə sahibkarlığın ən ümdə məqsədidir**

# RƏQABƏTİN ROLU

- Rəqabət yenilikçiliyi hərəkətə gətirən əsas amildir
- Ədalətli rəqabət  müvafiq qaydaların hamı üçün eyni səviyyədə tətbiq edilməsi deməkdir
- Rəqabətlilik hərdən mənfi təsir bağışlayır, sanki bazar “heyvani hisslərə” qulluq edir
  - LAKİN ədalətli rəqabət heç də amansız mübarizə deyil;
  - Bazar qaydalarının rolu ədalətli rəqabəti təmin etməkdir;
  - Rəqabət qaydaları hamı üçün eyni olmalıdır

- Ədalətli rəqabət sahibkarlığı düzgün istiqamətə yönəldir və yeni məhsul və xidmətlərdə yenilikçiliyin tətbiqini təmin edir və s.

# YENİLİKÇİLİYİN QİYMƏTLƏNDİRİLMƏSİ

- Milli və beynəlxalq indekslər
  - Dünya Bankının "Knowledge Economy Index (KEI)"
  - Avropa Birliyinin "European Innovation Scoreboard (EIS)"
- Korporativ qiymətləndirmə
  - Boston Consulting Group - un YENİLİKÇİLİYƏ dair illik sorğuları
- Qiymətləndirilənlər
  - YENİLİKÇİLİYİN qiymətləndirilməsi ona təkan verir
- Yeniliklər heç də hamısı elmi laboratorlardan və ya yaxşı layihələndirilmiş proseslərdən əldə olunmur
  - Bir çox hallarda yenilikçilik qara qutu olaraq qalır

**Yenilikçiliyin qiymətləndirilməsi ilə iş bitmir, idarə etmək daha çətindir**

# SAHİBKARLIQ VƏ YENİLİKÇİLİK: ŞƏRQİ AVROPA TƏCRÜBƏSİ

- Qaydaları dəyişmək institutları dəyişməkdən asandır
- Yaxşı icraatın olmaması hamı üçün bərabər şərtlərin təmin olunvasına problemlər yaradır
- Yavaş addımlayan islahatlar azad bazar və demokratiyanın imicinə xələl gətirə bilər
- Lazımlı islahatlar problemlər törətsə də, sahibkarlıq və yenilikçilik üçün əlverişli institusional mühitin yaradılması uzun müddətdə öz səmərəsini verəcək

**Qaydaları müəyyənləşdirmək asan işdir - onların tətbiqi çətindir**